**"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1**
**"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1**
**УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1**

**UOT 2-18:316,37**

**FƏXRƏDDİN EYLAZOV**
AMEA Naxçıvan Bölməsi
eylazov@gmail.com

# NAXÇIVANLI FƏQİHLƏR HAQQINDA

*İslam hüququnun təşəkkül tapması, bir çox tarixi dövrlərdə bir elm olaraq inkişaf etməsi və bu sahədə əsərlərin yazılması müxtəlif millətlərdən olan müsəlman alimlərin böyük zəhmətinin nəticəsidir. Bu alimlərin yaşadıqları ərazilərdən biri Azərbaycan, o cümlədən Naxçıvandır. Orta əsrlərdə yaşayıb-yaratmış Naxçıvan hüquqşünasları Yaxın və Orta Şərqin, habelə dünyanın elm və mədəniyyət xəzinəsinə öz zənginliyi ilə seçilən elmi töhfələr vermişlər. Onların dərin elmi məzmunlu və sanballı əsərlərindən ibarət irsləri islam hüquq tarixində silinməz iz buraxmış sərvətlərdir.Bu məqalədə İslam hüquq elimləri və mənbələrdə rastlaşdığımız bəzi Naxçıvanlı hüquqşünaslar haqqında məlumat öz əksini tapmışdır.*

**Açar sözlər**: *İslam hüququ, Naxçıvanlı müəlliflər, Ordubadi, hüquq məktəbi*

İslam hüququ müsəlman olan hər bir kəsin doğumundan ölümünə qədər müəyyən olunmuş bir sıra qayda və qanunlara tabe olmasını tələb edən bir sistemdir. Bu sistemin qayda və qanunlarına müsəlmanların ibadət həyatı ilə yanaşı, ayrı-ayrı fərdlərlə və eləcə də dövlətlə olan sosial və ictimai münasibətləri də daxildir [13, s. 93]. Öz növbəsində İslam hüququ müsəlmana gündəlik həyatında lazım olan bütün biliklərin tam məcmuəsidir [14, s. 193]. İslam hüququ bu günə qədər hüquq sistemləri tarixində bilinən ən böyük və ən geniş hüquq sistemidir [6, s. 203]. Bu hüquq sisteminin içərisində müxtəlif tarixi dövrlərdə ortaya çıxan bir çox hüquq məktəbləri yer almışdır [10, s. 142]. Bunlardan qurucularının adları ilə məşhurlaşan hənəfi, maliki, şafii, hənbəli və cəfəri hüquq məktəblərinin adını çəkmək olar [13, s. 168]. Bu məktəblər arasında əsasən fərqli cəhətlər şəri dəlillərdən çıxarılan bəzi hökmlərdəki görüş ayrılıqlarıdır [13, s. 201]. Bu görüş ayrılıqları dini olmayıb, hüquqi bir ixtilafdır ki, bu isə öz növbəsində İslam hüquq sistemində hüquq zənginliyi ortaya çıxartmışdır [13, s. 204].

İslam hüququnun digər bir adı, klassik elmi ədəbiyyatda fiqhdir [12, V s. 98]. Əvvəllər daha çox hüquq mənasında olan fiqh kəlməsindən istifadə edilirdi. Fiqh sözünün Azərbaycan dilində mənası "anlamaq, qavramaq, bilmək" deməkdir [10, s. 183]. Termin olaraq isə fiqh eyniylə İslam hüquq sistemidir. Bu məqalədə eyni mənada olan hər iki ifadədən: İslam hüququ və fiqh ifadələrindən istifadə edilmişdir.

**Məqalə tarixçəsi:**
Göndərilib: 16.02.2019, qəbul edilib: 26.03.2019

İslam on dörd əsrdən çoxdur ki, dünyada hökm sürən dinlərdən biridir. Bu müddət ərzində islam mənsublarının sayı ildən ilə artmış və islam bir çox ölkələrin rəsmi dini olmuşdur. İslamı qəbul edən və müsəlman olan müxtəlif millətlər təbii olaraq fərqli mədəniyyətlərə və adət ənənələrə sahib olduqları üçün onların fərqli sosial, siyasi, idari, maddi problemləri də ortaya çıxırdı [16, s. 106]. Lakin bu problemlər bütün dövrlərdə islamın əsas mənbələri sayəsində səhabələrdən olan fəqihlər ilə onlara tabe olan tabiin fəqihləri və islam ölkələrinə yayılmış müctəhid imamları tərəfindən həll olunurdu. Fərqli məzhəblərə mənsub olmalarına və fərqli metodları tətbiq etmələrinə baxmayaraq müctəhid imamlar meydana gələn hər bir hadisəyə dair islam hüququnda cavab tapırdılar [9, s.32-33]. Müctəhidlərin əsas işi ictihad etməkdir. *İctihad* etmək, ortaya çıxan hər hansı bir hadisə ilə əlaqədar hökmü şəri dəlillərə istinad edərək açıqlamaq deməkdir. Unutmamaq lazımdır ki, müctəhidlər hökm qoymurlar, onlar fiqhin əsas mənbələri sayılan və heç bir vaxt mübahisə yaratmayan Quran və sünnədə çox açıq olmayan hökmü çıxarıb, bəyan edirlər. İslam hüququna görə hökm verən Allahdır və Onun hökmləri Qurani-Kərimdən öyrənilir. Qurani-Kərimdə üç yüzə yaxın inanc, ibadət və hüquqi hökmləri bəyan edən ayələr vardır [8, s. 310].

Hər hansı bir hadisə və ya məsələ haqqında verilən bu hökmlərin öyrənilməsi və tətbiqi Həzrəti Muhəmmədin peyğəmbərlik vəzifələrindən biri sayılırdı. İslam huququnun Quran və sünnəyə görə hökmləri yeddi yerə ayrılır:

1. Namaz, oruc, zəkat kimi Allaha ibadətə aid hökmlər. Bunlara **ibadət** ismi verilmişdir.
2. Nigah, boşanma, nəfəqə kimi ailə məsələlərinə aid hökmlər. Bunlara **əhvali-şəxsiyyə** ismi verilmişdir.
3. Mallar və haqlar ilə əlaqədar insanlar arasında olan münasibətlər. Bunlara **muamələt** ismi verilmişdir.
4. Dövlətin vətəndaşları üzərindəki səlahiyyəti və aralarındaki qarşılıqlı haqq və vacib hökmlər. Bu hökümlər **əl-əhkəmüs-sultaniyyə** ismi verilmişdir.
5. Günahkarların cəzalandırılması və insanların arasında daxili mühafizəyə aid hökümlər. Bunlara **uqubat** ismi verilmişdir.
6. İslam dövlətinin digər dövlətlərlə münasibətlərini təmzimləyən hökmlər. Bunlara **millətlərarası hüquq** ismi verilmişdir.
7. Əxlaq, yaxşılıq və pisliyə aid hökmlər. Bu bölümə isə **ədəb** deyilir.

Qurani-Kərim islam şəriətinin bütün qayda və əsaslarının bəyan olunduğu ilahi bir kitabdır. Məsələn, Quranda namaz qılma, zəkat vermə və oruc tutmanın əmr edilməsinə baxmayaraq, bu ibadətlərin təfərrüatlarından söz edilməz. İbadətlərin müsəlmanlara yerinə yetirmək şəkillərini, əmr və qadağanlarının nə olduğunu öyrətmək səlahiyyəti Allah tərəfindən Həzrəti Muhəmmədə verilmişdir. Buradan isə aydın olur ki, Allahdan sonra ikinci dərəcəli hökm verən Həzrəti Muhəmməddir [8, s. 143]. Bu səbəbdən, İslam hüququnun öyrənilməsinin ilk mənbəyi məhz Qurani-Kərim və Həzrəti Muhəmmədin sünnəsi və ya digər bir ifadə ilə desək sünnənin yazılı mətnləri olan hədislərdir. İslam alimlərinin çoxuna görə sünnə müstəqil bir hüquq mənbəyi də sayıla bilər. Çünki Qurani-Kərimdə mövcud olmayan bəzi hökmlər sünnədə yer almışdır.

Bu səbəblə, İslam hüququnu bu iki mənbədən (*nəslərdən*) ayırmaq mümkün deyildir [9, s. 171]. Həzrəti Muhəmmədin vəfatından sonra eyni əsrin hüquqçularının bir hökm üzərində ittifaq etməsi *icma* adlanır ki, bu da sünnədən sonra gələn qüvvətli hüquqi dəlildir. *Qiyas* İslam hüququnda dördüncü mötəbər mənbə sayılır. Quran və sünnədəki dini bir hökmü aralarındakı oxşarlıq səbəbi ilə digər bir hökm üçün istifadə etmək qiyasdır [6, s. 65]. Fəqihlər nəslərdən çıxardıqları və *illət* adlanan hökmləri, haqqında nəs olmayan hadisəyə tətbiq edilib, edilməyəcəyini qiyas metodu ilə müəyyən edirlər. İslam hüququnun müxtəlif hökm çıxarma metodları olmasına baxmayaraq, onların hamısı Quran və ya sünnənin hökmü ilə tətbiq olunan metodlardır. Bu səbəbdən də fiqhi hökmlərin hamısı eyni dərəcədə deyildir. Çünki bu hökmlərdən bəzilərinin mənbəyi ancaq nəslərdir (Quran və sünnə), bəzilərinin mənbəyi isə icma, ya qiyas və yaxud da digər ictihad mənbələridir [16, s. 136].

Min dörd yüz ildən çoxdur ki, Şərqdə yaranan və hökmranlıq edən dövlətlər, icmalar və müxtəlif cəmiyyətlərin əksəriyyətinin inancı islam, əsaslandığı əsas hüquq sistemi islam hüquq sistemidir [14, s. 110]. İslam dünyasının şimali-şərqində mühüm siyasi, iqtisadi və mədəni mövqeyə sahib olan ölkələrdən biri də Azərbaycandır [3, s.93]. Azərbaycan hüquq məktəbinin islam hüquq sistemində özünəməxsus yeri vardır. Əlbəttə ki, Azərbaycan hüquq məktəbi dedikdə, onu ilk növbədə ümumi islam hüququndan kənarda təsəvvür etmək olmaz. Çünki Azərbaycan hüquq məktəbi mahiyyətcə islam hüququndan heç bir cəhətdən fərqlənməmiş və tarix boyunca onun əsas prinsiplərinə söykənmişdir. İslam hüququnun hökmləri Azərbaycanın ictimai həyat tərzinin, adət və ənənələrinin formalaşmasında böyük rol oynamışdır [5, s. 8 - 9]. Azərbaycanın hüquq məktəbinin ona aid çoxlu sayda hüquq kitabları və görkəmli fəqihləri olmuşdur. Onlar Misir, Suriya, İraq, İran, Türkiyə və s. Ölkələrdə elmi fəaliyyət göstərmiş, maariflənmə işi aparmış və islam hüququna dair dəyərli və mötəbər əsərlər yazmışlar. [5].

VII əsrin ikinci yarısından XX əsrin başlanğıcınadək olan bir müddət ərzində Azərbaycanda hakim mövqe tutan islam hüququnun zəngin elmi və irsi tarixi vardır. Əlbəttə ki, ilk öncə bunu bildirməliyik ki, mənbələrdəki ziddiyyətli faktlara baxmayaraq, islam ordusunun Azərbaycanı fəth edib və onu Xilafətinin tərkiibinə daxil etməsi Muğan, Naxçıvan, Beyləqan, Şirvan, Dərbənd və Borçalı əhalisi ilə bağlanan ilk Əhdnamələr 21-ci (642) ildə olmuşdur. Xəlifə Ömərin əmri ilə Bukeyr ibn Abdullahın başçılıq etdiyi İslam ordusunun Azərbaycana ilk gəlişi isə 18-ci (639) ildə baş vermişdir [2, s. 189]. İslam ordusu ilə Azərbaycan ordusu arasında toqquşma barışıq təklifi ilə sona çatmış və müqavilə imazalanmışdır. Xəlifə Osmanın əmrilə Azərbaycana ikinci dəfə yürüş başlandı. Əl-Vahid ibn Ukbanın rəhbərlik etdiyi islam ordusu iki dəstəyə bölündü. Birinci dəstə Azərbaycanın Arazdan cənubdakı ərazisini fəth etdi və əhali ilə müqavilə bağlandı. İkinci dəstə isə Arazı keçərək Arran və Kürün sağ və sol sahilindəki torpaqları fəth etdi və bu yürüş də yerli hakimlərlə bağlanan müqavilə ilə nəticələndi [15, s. 73]. Müqavilələrə əsasən Azərbaycanın əhalisinə və onların dinlərinə əmin-amanlıq verildi. Uşaqlardan, qadınlardan, dünya malından heç nəyi olmayan xəstələrdən, tərki-dünya abidələrdən başqa hər kəs müqaviləyə əsasən gücü çatdığı qədər cizyə ödəməli idi.

Beləliklə, artıq II (VIII) əsrin əvvəllərində islam dini Azərbaycanda geniş yayılmış, möhkəmlənmiş və hakim din olmuşdur [14, s. 103]. Azərbaycan Xilafətin tərkibinə daxil olduqdan sonra başqa ölkələrdə olduğu kimi burada da müqavilələr bağlanır, iqtisadiyyatın, elm və mədəniyyətin inkişafı üçün köklü dəyişikliklər baş verirdi [16, s. 54]. Azərbaycanda VII əsrin sonlarından başlayaraq, böyük şəhərlərin məscidlərində məktəblər açılırdı. Bunlarda ərəb dili, ilahiyyat elmləri, tarix, coğrafiya və s. elmlər öyrədirdilər (16, s. 133). Abbası xəlifələrinin dövründən başlanan (656/1258) Azərbaycan elminin ilk intibah mərhələsini tarixçilər III-VI (IX-XII) əsrlərə aid edirlər. Bu əsrlərdə iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycanda Ərdəbil, Təbriz, Marağa, Bərzənd, Səlmas, Xoy, Bərdə, Naxçıvan, Gəncə, Şəmkir, Beyləqan, Şamaxı, Bakı, Dərbənd kimi iri mədəniyyət və elm mərkəzləri olan şəhərlər var idi. Bu dövrdə tədris işi məscidlərdə cəmlənmişdi. Günümüzə qədər qorunub saxlanılan məscidlərin daş kitabələrindən də aydın olur ki, məscidlər təkcə ibadət yeri deyil, məktəb və mədəniyyət mərkəzi kimi də fəaliyyət göstərmişlər. Lakin Abbasilər Xilafətinin dövründən məscidlər yalnız ibadət yeri olaraq istifadə edilməyə başlandı. Məscidlərin yanında ayrıca tədris binalarının tikilməsi, dini məktəb və mədrəsələrin açılması II (VIII) əsrin axırlarına, III (IX) əsrin əvvəllərinə aiddir [12, s. 37]. III (IX) əsrdən başlayaraq artıq Azərbaycanda islam elm və mədəniyyətinin inkişafında böyük rolu olan və dini elmlərlə maraqlanan alimlər yetişməyə başlamışdır. Azərbaycan elmində olan bu yüksəliş ilk növbədə Abbasi xəlifələrinin elm və mədəniyyət sahəsində yürütdükləri siyasətlə bağlı idi. İslam elm aləmində və o cümlədən Azərbaycan elminin inkişafında müstəsna rol oynayan Beytul-hikmə adlı elm ocağının əsası təqribən 212-ci (827) ildə məhz Abbasilər dövründə qoyulmuşdur [10, s. 92]. Beytul-hikmə də yunan, hind, arami və digər qədim dillərdə yazılmış elmi kitablar tərcümə edilir və xiləfətin müxtəlif bölgələrinə göndərilirdi. Bununla da, Azərbaycan daxil olmaqla xilafətin bir çox bölgələrində elmin inkişafına güclü təkan oldu. Həmçinin, III (IX) əsrdən başlayaraq azərbaycanlı alimlər ilk təhsillərini vətənlərində aldıqdan sonra Şərqin elm və mədəniyyət mərkəzləri olan Bağdad, Kufə, Bəsrə, Dəməşq, Qahirə və başqa şəhərlərə ali təhsil üçün gedirdilər [3, s. 83]. Müxtəlif dini elmlər sahəsində azərbaycanlı alimlər mühüm elmi axtarışlar aparır və islam elm aləmində şöhrət tapırdılar. Belə alimlərdən Abdullah ibn əl-Hüseyn əl-Bərdəi Əbu Səid əl-Hənəfi (v.317/929), Hinduşah Naxçıvani (XIII əsr), Nəcməddin Əhməd ibn Əbu Bəkr ibn Məhəmməd Naxçivani (v. 650/1252),Əbu Bəkr Əhməd ibn Harun ibn Ruh əl-Bərdəci (v.301/914), Məkki ibn Əhməd Sədəveyh əl-Bərdəi (v.301/914), Əbülula ibn Abdullah Əli əl-Xəlili əl-Qəzvini (v.446/1054), Şeyx Məhəmmədəli ibn hacı Xadadad Naxçıvani (v.1334/1915) Muhəmməd Qasım ibn Məhəmməd Təqi əl-Ordubadi (v.1333/1914) və bir çox başqaları dini elmlər sahəsində böyük nailiyyətlər qazanmış, qiymətli əsərlər yazmışlar [18], [12].

Azərbaycan hüquqçuları orta əsrlərdə Misirdən tutmuş Dağıstana qədər müxtəlif ölkələrdə, xüsusilə də Suriya, Türkiyə, İraq və İranda geniş fəaliyyət göstərmiş, hüquqa aid yüzlərcə iri həcmli əsər yazmışlar. Çünki islam dininin Azərbaycanda tam qələbə çaldığı bir zamanda xalqın zəkalı oğulları belə bir

həqiqəti dərk etməyə bilməzdilər ki, yeni dinin müddəalarını mənimsəmək, onun ehkam və qanunlarını diqqətlə öyrənmək artıq həyati bir tələbata çevrilmişdi. Xalqın içərisindən çıxmış din alimlərinə, xüsusən də fəqihlərə daha çox ehtiyac duyulurdu [10, s. 30-31]. Fəqihlər dövlətin idarə işlərində, xüsusən məhkəmələrdə, vergi divanlarında, digər qanunvericilik idarələrində geniş fəaliyyət göstərirdilər. Şəhərlərin siyasi və mədəni həyatında nüfuzlu mövqe tutan qazılar bir qayda olaraq fəqihlərdən seçilirdi. Bütün bunlar isə fiqh elminə olan marağı xeyli artırırdı. Mənbələrdə məşhur qazılar nəslindən olan öz ədaləti, savadı və dini həyatları ilə xalq arasında sevilmiş və böyük hörmətə layiq görülmüş bir çox Naxçıvanlı qazıadları vardır. Onlardan

**Molla Məhəmmədəli Naxçıvani**

Şeyx Məhəmmədəli ibn hacı Xadadad Naxçıvani XIV əsrin (hicri) məşhur fəqih və alimlərindəndir. Şeyx Məhəmməd Mehdi İsfəhani Kazimi özünün Əhsənül-Vədiyyə əsərində cild I səh. 220-də mərhum Məhəmmədəli Naxçıvaninin əsərlərini bu ardıcıllıqla nəql edir:

1. Şeyx Ənsarinin “mətacir” əsərinə haşiyə.
2. Bəzi şəri hökümlərin şərhi.
3. Satış malının eyibləri haqqında risalə
4. Pakların şərhi haqqında risalə
5. Vacibin müqəddiməsi haqqında risalə
6. İcma haqqında risalə
7. Əmr və nəhy haqqında risalə

Şeyx Məhəmmədəli ibn hacı Xadadad Naxçıvani 1334-h.q ilində 66 yaşında Kərbəlada vəfat etmiş və Nəcəfi – Əşrəfdə dəfn olunmuşdur [19, I, s. 242], [17,s.320].

**Muhəmməd Qasım ibn Məhəmməd Təqi əl-Ordubadi**

Əl-Ordubadi fiqh üsulçusu olmuşdur. İlk təhsilini vətənində aldıqdan sonra İraqa getmiş və orada mükəmməl dini təhsil almışdır. Fəqih Kərbala, Samirə və başqa şəhərlərdə dərs vermişdir. Mənbələrdə bildirilir ki, onun fəqhə dair əsəri vardır. Əl-Ordubadi 1333-cü (1910) ildə İraqda vəfat etmişdir [19, III,s.597], [18,s.143].

**Mirzə Əbulqasim Muctəhid Ordubadi**

Mirzə əbulqasım ibn Məhəmmədtəqi ordubadi Təbrizdə anadan olmuş, Nəcəfi- Əşrəfdə yaşamış və orada vəfat etmişdir, XIV əsrin (h) fəqihlərindəndir. Mərhum Müdərris özünün Reyhanul əl-ədəb əsərində onu alim, fazil, kamil ədib, fəqih, üsuli-ricali və fəqihlərin ən üstünü kimi sifətlərlə yad edir. Onun əsərləri fiqhin bütün bölmələrinə aid olunur. Kəlam və üsul elmində dərin hərarətə malik idi. Əsərlərinin sayı 50-dən çoxdur. Onun təfsir sahəsindəki Əş-şəhabul mubin fi ecazul Quran” əsəri Quranın təfsirləri içərisində ən çox müraciyyət olunan əsərdir. [19, I, s. 238], [18,s.209].

**Hacı Mirzə Məhəmmədəli Qərəvi Ordubadi**

Hacı Mirzə Məhəmmədəli ibn Əbulqasım Qərəvi Ordubadi kamil alim, böyük əxlaq sahibi, əvəzssiz natiq, və məşhur xətib, dövrünün fəqihi kimi tanınmışdır. O, əllamə Əminiyə “Əl-Qədir” əsərinin yazılmasında köməklik etmiş və məsləhətlər vermişdir.

Mirzə Məhəmmədəli Qərəvi 11 rəcəb 1312-ci (h.q) ildə Təbrizdə anadan olmuş, 4 yaşında atası mərhum Mirzə Əbülqasım Qərəvi Ordubadi ilə birliikdə Nəcəfi-Əşrəfə getmişdir. İlk təhsilini atasından almış və öz istedadı ilə həmin dövrdə bir sıra alimlərin diqqətini cəlb etmişdir. Sonra dərslərini Şəriyyəti İsfəhani, Şeyx Məhəmməd Hüseyn İsfəhani (Kompani), Mirzə Əli Ağa Şirazi və digərlərindən almışdır. Hacı Mirzə Məhəmmədəli ibn Əbulqasım Qərəvi Ordubadinin məşhur əsərləri bunlardır:

1. Nurlar kitabı
2. Muxtarın həyatı haqqında nəzərlər
3. Aşura günü mənzuməsi
4. Fiqhə aid mənzumə
5. Zuhərir Rəbi (İslam alimlərinin biblioqrafiyası)
6. Şeyx Təntavinin nəzəriyyələrinə iradlar [19, I, s. 343].

bunları və digərlərini göstərmək olar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan cildi. Bakı, 2007.
2. Bünyadov Z.M., Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989.
3. Bünyadov Z.M., Azərbaycan Atabəylər dövləti. Bakı, Elm, 1978.
4. Əlyazmalar xəzinəsində, VII cild, Bakı, Elm, 1980, 5-18 c., C.Qəhrəmanov.
5. Quliyev A. XIII əsrin sonu XIV əsrin əvvəllərində Azərbaycanda siyasi və hüquqi təlimlər. Bakı, Azərnəşr,1993.
6. Məmmədov Z.,Orta əsr Azərbaycan filosof və mütəfəkkirləri, Bakı, 1986.
7. Tərbiyət M., Danışməndiani - Azərbaycan. Azərbaycan dilinə tərcümə edənlər İ.Şəms və Q. Kəndli. Azərnəşr, 1987
8. Большаков О.Г.,История халифатаю, в 3 томах,Москва,1998.
9. Калинина Т.М., Сведения ранних ученых арабского халифата, М, Наука, 1988.
10. Albayrak . Son devir Osmanlı uleması, 5 cilt, I İstanbul, Yapım, 1996.
11. Gözübüyük Ş. Hukuka Giriş ve Hukukun Temel Kavramları, Ankara, 1993.
12. İslam Alimleri Ansiklopedisi, İstanbul, trs.18 ciltte. V cilt.
13. Kardavi, Y., İslam Hukuku, (ter.Y. İşıcık, A.Yaman), İstanbul, 1999.
14. Karaman H., İslam Hukuk Tarihi, İstanbul, Nesil Yayınları, 1989.
15. Yılmaz R., Medeniyyetleri Devlet ve Hukuk Tarihi, Bakı, 2006,
16. Ez-Zerкa Ahmed, M., Çağdaş Yaklaşımla İslam hükuku, (ter.Arbaçan, C.), 3 cilt. trs.
17. حاخی خلیفه. کشف الظنون عن اسمائ الکوتوب و الفنون. ج1 دار الصعادت، 1310
18. شیخ آقا بزرگ التهرانی. الزاریا ج 1 تهران،کتابخانه اسلامی، 1957
19. عقیقی بخشایشی . مفاخر آذربایجان. ج1 تهران 1997

**РЕЗЮМЕ**

**ФАХРАДДИН ЭЙЛАЗОВ**

**О НАХЧЫВАНСКИХ ФАКИХАХ**

Появление исламского права, его развитие, как наука во многих исторических периодах, а так же написание работ в этой области являются результатом большой работы мусульманских ученых разных национальностей. Одной из территорий, в которой проживали эти ученые, является Азербайджан, включая Нахчыван. Нахчыванские правоведы, которые жили и творили в средние века, внесли свой богатейший вклад в науку и культуру Ближнего и Среднего Востока, а также всего мира. Их глубоко научно содержательные наследия, состоящие из весомых работ, является незабываемым следом в истории исламского права. Эта статья содержит информацию о встречающихся в исламских правовых науках и источниках нахчыванских правоведах.

**Ключевые слова:** Исламское право, нахчыванские авторы, Ордубади, правовая школа.

**SUMMARY**

**FAXHRADDIN EYLAZOV**

**ABOUT NAKHCHIVANI LAW ENFORCEMENT OFFICERS OF ISLAM**

The formation, development of Islamic law as a science in many historical periods and the writing of the works in this sphere, are the result of the great work of Muslim scholars from different nationalities. One of the areas in which these scientists live, is Azerbaijan as well as Nakhchivan. The Nakhchivan lawyers, who lived and worked in the Middle Ages, contributed to the scientific and cultural treasures of the Near and Middle East, as well as the world scientifically-selected contributions. Their scientific heritage, with their deeply scientifically important and valuable works, is an endless trace in the history of Islamic law.

This article contains information about Islam law sciences and some Nakhchivanian lawyers who we come across in the sources.

**Keywords:** Islamic law, Nakhchivanian authors, Ordubadi, law school

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.

**Qrant№ EİF-KETPL-2-2015-1(25)-56/47/5**

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*